Bildiriş

Statistik vahidlərin nəzərinə!

2025-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müvafiq qərarları ilə aşağıdakı rəsmi statistika hesabatı formaları yenidən təsdiq edilmişdir:

1. “Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında” 1-istehsal (tikinti) №-li illik;
2. “Reklam xidmətləri haqqında” 1-reklam №-li illik;
3. “Sudan istifadəyə dair” 2-TG (su təsərrüfatı) №-li illik.
4. “Məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti haqqında” 1-məktəbdənkənar təhsil №-li illik;
5. “Müəssisələrdə informasiya və kommunikasiya texnologiyalarından istifadə haqqında” 1 №-li (İKT) illik;
6. “Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında” 4-ticarət №-li rüblük.

2025-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müvafiq qərarı ilə aşağıdakı rəsmi statistika hesabatı forması ləğv edilmişdir:

1. “Elektron xidmətlərin göstərilməsi haqqında” 1-elektron xidmət №-li illik.

2025-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müvafiq qərarları ilə aşağıdakı rəsmi statistika hesabatı formalarından aktuallığını itirmiş göstəricilər çıxarılmış və tələbata uyğun yeni göstəricilər əlavə edilmişdir:

1. “Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi haqqında” 5-(balıqartırma) №-li (yarımillik, illik);
2. “Təzə balığın ovlanmasına verilən kvota, istifadə etdikləri gəmilərin, qayıqların və işçilərin sayına dair” 3-balıq (kvota) №-li illik;
3. “Əhalinin məşğulluğu haqqında” 4-məşğulluq №-li rüblük;
4. “Dövlət qulluqçularının sayı və tərkibi haqqında” 3-əmək №-li illik;
5. “İşçilərin sayı, hərəkəti və əmək haqqı fondu haqqında” 4-əmək №-li aylıq;
6. “Yol hərəkəti və onun təhlükəsizliyi göstəriciləri haqqında” 2 №-li (DYP) rüblük;
7. “Əmək üzrə” 1-əmək №-li illik.

Rəsmi statistika hesabatı formalarında və Dövlət Statistika Komitəsi tərəfindən göstərilən “Təqdim ediləcək hesabatlar haqqında məlumat” elektron xidməti informasiya sistemində (link https://www.azstat.gov.az/statLogin/) baş vermiş dəyişikliklər öz əksini tapmışdır. Bununla yanaşı, həmin linkdə aidiyyəti sahə üzrə statistik vahidin kod və parolunu daxil etməklə hesabatlara dair məlumatı əldə etmək mümkündür.

Qeyd olunanları nəzərə alaraq, rəsmi statistika hesabatlarının müəyyən olunmuş vaxtda təqdim edilməsi Sizdən xahiş olunur.

Əlaqə üçün aidiyyəti telefon nömrələrini müvafiq informasiya sistemindən əldə edə bilərsiniz.